# CİNAYƏT YOLU İLƏ ƏLDƏ EDİLMİŞ ƏMLAKIN LEQALLAŞDIRILMASI VƏ TERRORÇULUĞUN MALİYYƏLƏŞDİRİLMƏSİNİN QARŞISININ ALINMASINA DAİR ƏSAS PRİNSİPLƏR


***Məsul şəxs:***

*Auditorlar Palatası*
*Aparatının rəhbəri* — *Q. Bayramov*

***İcraçılar:***

*Sədrin elmi – metodik məsələlər*
*üzrə müşaviri* — *N.Talıbov*

*Auditin hüquqi tənzimlənməsi və*
*dövlət orqanları ilə iş idarəsinin*
*rəisi* — *E.İbrahimov*

*Auditin innovativ inkişafı, operativ tənzimləmə*
*və keyfiyyətin idarə edilməsi*
*idarəsinin rəisi* — *Q.Əhmədov*

*Haqsız rəqabətə qarşı mübarizə*
*idarəsinin rəisi* — *R.Cəfərli*



**BAKI - 2023**

## CİNAYƏT YOLU İLƏ ƏLDƏ EDİLMİŞ ƏMLAKIN LEQALLAŞDIRILMASI CİNAYƏTLƏRİ

Auditor fəaliyyəti göstərən şəxslər öz peşə fəaliyyətini yerinə yetirən zaman Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 193-1 maddəsinə uyğun olaraq aşağıdakıları nəzərə almalıdır:

- cinayət yolu ilə əldə edildiyini bilə-bilə əmlakın əldə edilməsinin həqiqi mənbəyini gizlətmək və ya cinayət törətmiş şəxsin məsuliyyətdən yayınması üçün ona kömək etmək məqsədilə belə əmlakın konversiyası və ya köçürülməsi, yaxud həmin məqsədlərlə cinayət yolu ilə əldə edilmiş əmlakdan istifadə etməklə maliyyə əməliyyatlarının və ya digər əqdlərin həyata keçirilməsi;

- cinayət yolu ilə əldə edildiyini bilə-bilə əmlakın həqiqi xarakterinin, mənbəyinin, yerinin, onlara sərəncam verilməsinin, onların yerdəyişməsinin, belə əmlaka olan hüquqların və ya onların kimə məxsus olmasımn ört-basdır edilməsi və ya gizlədilməsi - dörd min manatdan səkkiz min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə, iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Eyni əməllər:

- qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə;
- təkrar törədildikdə;
- şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə - üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə, beş ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Cinayət Məcəlləsinin 193-1.1 və ya 193-1.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

- mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə;
- xeyli miqdarda törədildikdə – üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə yeddi ildən on iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

## TERRORÇULUĞUN MALİYYƏLƏŞDİRİLMəSİ CİNAYƏTLƏRİ

Terrorçuluğun maliyyələşdirilməsi cinayətləri Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 214-1 maddəsində aşağıdakı kimi ifadə edilir:

- əldə olunma mənbəyindən asılı olmayaraq, pul vəsaitlərinin və ya digər əmlakın tamamilə və yaxud qismən, bilavasitə və ya dolayısı ilə Cinayət Məcəlləsinin 102, 214, 214-2, 214-3, 215, 219, 219-1, 219-2, 226, 227, 227-1, 270-1, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin şəxs və ya qrup (dəstə, təşkilat) tərəfindən hazırlanmasının, təşkil olunmasının və ya törədilməsinin, yaxud terrorçunun və ya terrorçu qrupun (dəstənin, təşkilatın) maliyyələşdirilməsi üçün istifadə olunacağını bilərək pul vəsaitlərinin və ya digər əmlakın qəsdən toplanılması və ya verilməsi - on ildən on dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

## ÖHDƏLİK DAŞIYAN ŞƏXSLƏR

2022-ci il 30 dekabr tarixli 781-VIQ №-li "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən “maliyyə institutları, eləcə də qeyri-maliyyə institutları və peşə sahibləri” öhdəlik daşıyan şəxslər olaraq müəyyən edilir.

Öhdəlik daşıyan şəxslər - "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının

Qanununa və müvafiq qanunvericiliyə əsasən cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi cinayətlərinə qarşı mübarizə sahəsində "profilaktik tədbirlər" (şəxsiyyətin müəyyən edilməsi, şübhəli əməliyyat hesabatı, davamlı məlumatlandırma, məlumat və sənədlərin çatdırılması, mühafizəsi və təqdim edilməsi) çərçivəsində müəyyən edilir.

## MÜŞTƏRİ UYĞUNLUĞU TƏDBİRLƏRİ

Auditorlar tərəfindən həyata keçirilməli olan müştəri uyğunluğu tədbirləri aşağıdakılardır:

1. Auditorlar nəzərə almalıdır ki, maliyyə institutları uydurma adlarla və ya anonim hesablar açmamalı, sənədləri və əmlakı uydurma adlar istifadə edilməklə və ya anonim olaraq saxlanca qəbul etməməli (xüsusi otaqlarda və ya seyf qutularında saxlamamalı), anonim depozit sertifikatları buraxmamalı və anonim bank kitabçaları təqdim etməməlidirlər.

2. Mühasibat və maliyyə xidməti göstərən auditorlar aşağıdakı hallarda müştəri uyğunluğu tədbirlərini tətbiq etməlidirlər:

2.1. işgüzar münasibətlərin yaradılmasından əvvəl;

2.2. iyirmi min manat məbləğində (bundan sonra – limit) və ya limitdən artıq məbləğdə həyata keçirilməsi gözlənilən hər hansı birdəfəlik əməliyyatdan əvvəl (bu hala, həmçinin limit çərçivəsində həyata keçirilərək bir-biri ilə əlaqəsi olan və ümumi məbləği limitdən artıq olan bir neçə əməliyyat aiddir);

2.3. maliyyə vəsaitlərinin elektron köçürülməsi və virtual aktivlərlə əməliyyatların aparılmasına dair Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən müəyyən edilmiş qaydalara uyğun olaraq maliyyə vəsaitlərinin birdəfəlik elektron köçürülməsindən və virtual aktivlərlə aparılan birdəfəlik əməliyyatlardan əvvəl;

2.4. əmlakın cinayət yolu ilə əldə edilməsinə və ya terrorçuluğun maliyyələşdirilməsində istifadə edilməsinə şübhə yaradan bütün hallarda;

2.5. əldə edilmiş məlumat və sənədlərin doğruluğuna və ya uyğunluğuna dair şübhələr olduqda.

3. Əməliyyatın ümumi məbləği əməliyyatın icrasından əvvəl məlum deyilsə, müştəri uyğunluğu tədbirlərinin tətbiqi əməliyyatın məbləğinin limitdən artıq olduğu müəyyənləşdiyi anda həyata keçirilir.

4. Mühasibat və maliyyə xidməti göstərən auditorlar müştəri uyğunluğu tədbirləri çərçivəsində aşağıdakı tədbirləri görməlidirlər:

4.1. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun 4.2-ci maddəsində nəzərdə tutulmuş hallarda müştərini eyniləşdirməli (müştərinin xidmətlərdən daimi və ya qeyri-müntəzəm istifadə etməsindən, fiziki və ya hüquqi şəxs, habelə xarici hüquqi təsisat olmasından asılı olmayaraq), müştərinin eyniləşdirmə məlumatlarını etibarlı, müstəqil mənbələrdən əldə edilən məlumat və sənədlər və ya informasiya ehtiyatları əsasında verifikasiya etməli və digər müştəri uyğunluğu tədbirlərini həyata keçirməlidirlər;

4.2. şəxsin müştərinin və ya digər şəxsin adından fəaliyyət göstərməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada təsdiq edilmiş səlahiyyətinin olub-olmamasını müəyyən etməli, həmin şəxsi eyniləşdirməli və eyniləşdirmə məlumatlarını etibarlı, müstəqil mənbələrdən əldə edilən məlumat və sənədlər və ya informasiya ehtiyatları əsasında verifikasiya etməli və digər müştəri uyğunluğu tədbirlərini həyata keçirməlidirlər;

4.3. benefisiar mülkiyyətçinin kimliyinin müəyyən edilməsinə tam əmin olanadək onu eyniləşdirməli və benefisiar mülkiyyətçinin eyniləşdirmə məlumatlarının etibarlı, müstəqil mənbələrdən əldə edilən məlumat və sənədlər və ya informasiya ehtiyatları əsasında verifikasiyası üçün ağlabatan tədbirlər görməlidirlər;

4.4. işgüzar münasibətlərin məqsədini və mahiyyətini aydınlaşdırmalı və bu barədə

müştəridən məlumat və sənədlər əldə etməlidirlər;

4.5. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun 4.4.1–4.4.4-cü maddələrində nəzərdə tutulmuş məlumatlar və sənədlər əsasında müştəri profilini yaratmalıdırlar;

4.6. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun 4.19-cu və 4.20-ci maddələrində nəzərdə tutulmuş tələblər barədə müştərini məlumatlandırmalıdırlar.

5. Mühasibat və maliyyə xidməti göstərən auditorlar işgüzar münasibətlərə aşağıdakı müştəri uyğunluğu tədbirlərini davamlı olaraq tətbiq etməlidirlər:

5.1. aparılan əməliyyatların müştəri barədə əldə edilmiş məlumat və sənədlərlə, habelə müştərinin fəaliyyəti və risk profili, o cümlədən maliyyə vəsaitinin mənbəyi haqqında məlumat və sənədlərlə uyğunluğunun müəyyən edilməsi məqsədilə əməliyyatların təhlil edilməsi;

5.2. mövcud olan məlumat və sənədlər nəzərdən keçirilib tədqiq edilərək yüksək riskli müştəriləri prioritetləşdirməklə müştəri uyğunluğu tədbirləri çərçivəsində əldə edilmiş məlumat və sənədlərin yenilənməsinin və adekvatlığının təmin edilməsi.

6. Müştərisi hüquqi şəxs və ya xarici hüquqi təsisat olan mühasibat və maliyyə xidməti göstərən auditorlar əlavə olaraq aşağıdakı müştəri uyğunluğu tədbirlərini həyata keçirməlidirlər:

6.1. müştərilərin fəaliyyətinin xarakterinin, sahiblik, nəzarət və idarəetmə strukturunun müəyyən edilməsi;

6.2. adı, təşkilati-hüquqi forması, mövcudluğuna dair dəlillər, habelə təsis sənədləri, cari fəaliyyətinə rəhbərlik edən vəzifəli şəxslərin adları, hüquqi və faktiki ünvanına dair məlumat və sənədlər əsasında müştərilərin eyniləşdirilməsi və eyniləşdirmə məlumatlarının etibarlı, müstəqil mənbələrdən əldə edilən məlumatlar, sənədlər və ya informasiya ehtiyatları əsasında verifikasiya edilməsi;

6.3. hüquqi şəxsin və xarici hüquqi təsisatın benefisiar mülkiyyətçisinin kimliyinin müəyyən edilməsinə tam əmin olanadək onun eyniləşdirilməsi və benefisiar mülkiyyətçinin eyniləşdirmə məlumatlarının etibarlı, müstəqil mənbələrdən əldə edilən məlumat və sənədlər və ya informasiya ehtiyatları əsasında verifikasiyası üçün ağlabatan tədbirlərin görülməsi.

7. Auditorlar tərəfindən hüquqi şəxsin (publik hüquqi şəxslər istisna olmaqla) benefisiar mülkiyyətçisinin eyniləşdirilməsi aşağıdakı ardıcıllığa uyğun olaraq həyata keçirilməli və eyniləşdirmə məlumatlarının verifikasiyası aparılmalıdır:

7.1. son nəticədə hüquqi şəxsdə mühüm iştirak payına (hüquqi şəxsdə iştirak paylarının bölgüsü mühüm iştirak payının mövcudluğunu istisna etmirsə) malik olan fiziki şəxs (şəxslər) müəyyən edilməli;

7.2. mühüm iştirak payına malik olan fiziki şəxsin (şəxslərin) hüquqi şəxsin benefisiar mülkiyyətçisi olmasına dair şübhələr olduqda və ya iştirak payı əsasında hüquqi şəxsə nəzarəti həyata keçirən fiziki şəxs (şəxslər) mövcud olmadıqda, hüquqi şəxsə başqa formada mövcud nəzarəti həyata keçirən fiziki şəxs (şəxslər) müəyyən edilməli;

7.3. əgər hüquqi şəxs üzərində iştirak payı əsasında və ya başqa formada nəzarəti həyata keçirən fiziki şəxsi müəyyən etmək mümkün deyildirsə, hüquqi şəxsə rəhbərliyi həyata keçirən fiziki şəxs (şəxslər) müəyyən edilməli.

8. Auditorlar nəzərə almalıdır ki, xarici hüquqi təsisatın benefisiar mülkiyyətçisinin eyniləşdirilməsi aşağıdakı ardıcıllığa uyğun olaraq həyata keçirilməli və eyniləşdirmə məlumatlarının verifikasiyası aparılmalıdır:

8.1. trastın strukturunda təsisçi, trast idarəçisi, trast təminatçısı (olduğu halda), benefisiar və ya benefisiarlar qrupu, trast üzərində effektiv nəzarəti həyata keçirən hər hansı digər fiziki şəxs (nəzarət və ya sahiblik zənciri də daxil olmaqla) müəyyən edilməli;

8.2. digər növ xarici hüquqi təsisatlarda eyni və ya oxşar hüquq və vəzifə daşıyan şəxslər müəyyən edilməli.

9. Həyatın yığım sığortası müqaviləsi üzrə müştəri uyğunluğu tədbirlərinə əlavə olaraq faydalanan şəxs müəyyən və ya təyin edilən kimi onun barəsində aşağıdakı tədbirlər həyata

keçirilməlidir:

9.1. sığorta müqaviləsi üzrə faydalanan şəxs fiziki, hüquqi şəxs və ya xarici hüquqi təsisat olduqda, həmin şəxsin eyniləşdirmə məlumat və sənədləri əldə edilməli;

9.2. faydalanan şəxs xüsusiyyətlərinə, təsnifatına və ya digər əsaslara görə təyin edildikdə, ödəniş zamanı faydalanan şəxsi eyniləşdirməyə imkan verən yetərli həcmdə məlumat və sənədlər əldə edilməli;

9.3. ödəniş zamanı faydalanan şəxsin barəsində verifikasiya tədbirləri həyata keçirilməli.

10. Mühasibat və maliyyə xidməti göstərən auditorlar bütün mürəkkəb, qeyri-adi olaraq irihəcmli olan, habelə açıq-aşkar iqtisadi və ya qanuni məqsədi olmayan əməliyyatların oxşar əməliyyat modelləri ilə müqayisəli şəkildə təyinatını və mahiyyətini ağlabatan səviyyədə aydınlaşdırmalı, belə əməliyyatlar zamanı təqdim edilmiş əmlakın mənbəyini müəyyən etməli və bunlarla bağlı təhlil hesabatı tərtib etməlidirlər.

11. Mühasibat və maliyyə xidməti göstərən auditorlar mürəkkəb, qeyri-adi olaraq irihəcmli olan, habelə açıq-aşkar iqtisadi və ya qanuni məqsədi olmayan əməliyyatlar üzrə risk dərəcəsi yüksək olan hallarda, habelə müştərilərin, məhsulların, xidmətlərin, əməliyyatların, çatdırılma kanallarının və coğrafi yerləşmənin xüsusiyyətləri ilə bağlı meyarların qiymətləndirilməsi əsasında və risk qiymətləndirmələrinin nəticələrini əsas götürməklə riskin yüksək olduğunu müəyyən etdikdə gücləndirilmiş müştəri uyğunluğu tədbirlərini tətbiq etməlidirlər.

12. Müştərilərin, məhsulların, xidmətlərin, əməliyyatların, çatdırılma kanallarının və coğrafi yerləşmənin xüsusiyyətləri baxımından yüksək və aşağı risk faktorları, müştəri profilinin yüksək, orta və ya aşağı risk qrupuna aid edilməsi qaydası, habelə gücləndirilmiş müştəri uyğunluğu tədbirlərinə dair tələblər maliyyə monitorinqi orqanı tərəfindən müəyyən edilir.

13. Gücləndirilmiş müştəri uyğunluğu tədbirləri çərçivəsində auditor xidməti göstərən şəxslər aşağıdakı tədbirləri görməlidirlər:

13.1. cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi riskləri yüksək olan hallarda müəyyən edilmiş risklərə mütənasib olaraq gücləndirilmiş müştəri uyğunluğu tədbirləri tətbiq etməli və işgüzar münasibətlərin monitorinqinin intensivliyini artırmalı;

13.2. həyatın yığım sığortası müqaviləsi üzrə gücləndirilmiş müştəri uyğunluğu tədbirlərinin tətbiqini müəyyənləşdirmək üçün həyatın yığım sığortası şəhadətnaməsi üzrə faydalanan şəxsin risk dərəcəsini qiymətləndirməli, hüquqi şəxs və ya xarici hüquqi təsisat olan faydalanan şəxsin yüksək riskli olduğu müəyyən edilərsə, faydalanan şəxsə, habelə onun benefisiar mülkiyyətçisinə münasibətdə gücləndirilmiş müştəri uyğunluğu tədbirləri həyata keçirməli;

13.3. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun 4.9-cu və 4.13.2-ci maddələrinin tələblərinin tətbiqi mümkün deyildirsə, habelə bu Qanunun 4.13.1-ci maddəsində nəzərdə tutulan tədbirlərin tətbiqi zamanı şübhəli əsaslar müəyyən edilərsə, bu barədə maliyyə monitorinqi orqanına məlumat verməlidirlər.

14. Müştəri uyğunluğu tədbirlərinin tətbiqi mümkün deyilsə, hər hansı əməliyyat həyata keçirilməməli, işgüzar münasibətlər yaradılmamalı, hesab açılmamalı, habelə işgüzar münasibətlərə xitam verilməli və bu barədə maliyyə monitorinqi orqanına məlumat verilməlidir.

15. Müştəri uyğunluğu tədbirlərinin həyata keçirilməsinin "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun 4.13.3-cü və 11.2-ci maddələrində nəzərdə tutulmuş tədbirlər haqqında müştərinin və ya digər şəxslərin məlumatlandırılmasına səbəb olacağına ehtimallar olduqda, müştəri uyğunluğu tədbirləri dayandırılmalı və müştəri haqqında məlum olan məlumat və sənədlər də əlavə edilməklə, bu barədə maliyyə monitorinqi orqanına məlumat verilməlidir.

16. Fəaliyyətinin xüsusiyyətləri, risk dərəcəsi və səciyyəviliyi nəzərə alınaraq, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək yaranmış və

Qanun qüvvəyə mindiyi gündən sonra davam edən işgüzar münasibətlər üzrə müştəri uyğunluğu tədbirləri tətbiq edilməlidir. Bu halda qeyd edilən tədbirlərin daha əvvəl tətbiqi, tətbiq edilmə vaxtı və tezliyi, habelə əldə olunan məlumatların yetərliliyi nəzərə alınmalıdır.

17. Aşağıdakı hallar istisna olmaqla, əvvəllər həyata keçirilmiş müştəri uyğunluğu tədbirlərinə güvənilə bilər və müştəri uyğunluğu tədbirlərinin təkrar həyata keçirilməsi tələb edilmir:

17.1. əmlakın cinayət yolu ilə əldə edilməsinə və ya terrorçuluğun maliyyələşdirilməsində istifadə edilməsinə şübhə yaradan bütün hallarda;

17.2. müştəri və ya benefisiar mülkiyyətçi ilə bağlı əvvəllər təqdim edilmiş eyniləşdirmə məlumat və sənədlərinin doğruluğuna və ya uyğunluğuna dair şübhələr olduqda;

17.3. müştərinin işgüzar profili ilə uzlaşmayan əhəmiyyətli dəyişikliklər olduqda;

17.4. mürəkkəb, qeyri-adi olaraq irihəcmli olan, habelə açıq-aşkar iqtisadi və ya qanuni məqsədi olmayan əməliyyatlar həyata keçirildikdə;

17.5. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun 4.5-ci maddəsində nəzərdə tutulmuş müştəri uyğunluğu tədbirlərinin davamlı olaraq tətbiq edilməsi zəruri olduqda.

18. Auditorlar tərəfindən müştərilərin, məhsulların, xidmətlərin, əməliyyatların, çatdırılma kanallarının və coğrafi yerləşmənin xüsusiyyətləri ilə bağlı meyarların (faktorların) qiymətləndirilməsi əsasında, risk qiymətləndirmələrinin nəticələrini əsas götürməklə riskin aşağı olduğu müəyyən edildikdə "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun 4.2.1–4.2.3-cü maddələrində göstərilən hallarda və maliyyə monitorinqi orqanı tərəfindən müəyyən edilmiş qaydalara uyğun olaraq sadələşdirilmiş müştəri uyğunluğu tədbirlərinin tətbiqinə yol verilir. Sadələşdirilmiş müştəri uyğunluğu tədbirlərinə dair tələblər risk qiymətləndirməsi əsasında maliyyə monitorinqi orqanı tərəfindən müəyyən edilir.

19. Auditorlar nəzərə almalıdır ki, peşəkar fəaliyyət çərçivəsində üçüncü şəxslərə hüquqi şəxsləri və ya onların filial və nümayəndəliklərini təsis etmək, hüquqi şəxslərin qanuni təmsilçisi qismində çıxış etmək, hüquqi şəxslər və ya onların filial və nümayəndəlikləri üçün hüquqi ünvan təmin etmək kimi xidmətləri göstərən şəxslər şirkətin xidmət təminatçıları hesab edilir. Xarici ölkədə (ərazidə) təsis edilən (qeydiyyatdan keçən) hüquqi şəxsin kənar idarəçisi qismində çıxış edən şirkətin xidmət təminatçıları, fəaliyyət istiqamətlərinə uyğun olaraq, öhdəlik daşıyan şəxslərlə işgüzar münasibətlər qurarkən, şirkətin xidmət təminatçısı qismində iştirak etdiyini bəyan etməli və bununla əlaqədar zəruri bütün məlumat və sənədləri təqdim etməlidirlər.

20. Xarici hüquqi təsisatın idarəçisi qismində çıxış edən şəxslər fəaliyyət istiqamətlərinə uyğun olaraq mühasibat və maliyyə xidməti göstərən auditorlarla işgüzar münasibətlər qurarkən xarici hüquqi təsisatın idarəçisi olduğunu bəyan etməli və idarəçisi olduğu xarici hüquqi təsisatın əmlak strukturu, təsisçisi, benefisiarı (benefisiarları, benefisiarlar qrupunu), digər idarəçiləri (olduğu təqdirdə), xarici hüquqi təsisat təminatçıları (olduğu təqdirdə) və ya eyni və ya oxşar hüquq və vəzifə daşıyan şəxslər haqqında məlumat və sənədləri və xarici hüquqi təsisatın təsis sənədinin surətini təqdim etməlidirlər.

## Maliyyə limitindən asılı olan şəxsiyyətin müəyyən edilməsi öhdəliyi

Auditor xidməti göstərən şəxslər aşağıdakıları nəzərə almalıdır:

- köçürülən məbləğ və ya bir-biri ilə əlaqəli birdən çox əməliyyatın ümumi məbləği iyirmi min manat və ya daha çox olduqda, şəxsiyyət haqqında məlumat əldə etməklə və bu məlumatların düzgünlüyünü təsdiq etməklə müştərilərin və onlar üçün və ya onların adından hərəkət edənlərin şəxsiyyəti müəyyən edilməlidir;
- şəxsiyyətin müəyyən edilməsi işgüzar əlaqələrin qurulmasından və ya proses həyata keçirilməzdən əvvəl tamamlanmalıdır.

## Fiziki şəxslərin şəxsiyyətinin müəyyənləşdirilməsi məsuliyyəti

Şəxsiyyətin müəyyən edilməsi məqsədilə tələb olunan məlumatlar: Azərbaycan vətəndaşları üçün ad, soyad, doğum yeri və tarixi, ana və ata adı, milliyət, Azərbaycan Respublikası şəxsiyyət vəsiqəsinin nömrəsi (yalnız Azərbaycan vətəndaşları üçün), şəxsiyyəti təsdiq edən sənədin növü və nömrəsi, ünvanı və imza nümunəsi, varsa telefon, faks nömrəsi, elektron poçt ünvanı, iş və peşə məlumatları.

> Fiziki şəxslərin şəxsiyyətinin müəyyən edilməsi prosesində Azərbaycan vətəndaşları üçün Azərbaycan Respublikası şəxsiyyət vəsiqəsi, Azərbaycan Respublikası sürücülük vəsiqəsi və ya pasport, Azərbaycan vətəndaşı olmayanlar üçün pasport və ya yaşayış yeri haqqında sənəd etibarlı sənəd kimi istifadə ediləcəkdir.

Şəxsiyyəti müəyyən etmək məqsədilə alınan məlumatlar: ad, soyad, doğum yeri və tarixi, ana və atasının adı, milliyyəti, şəxsiyyəti təsdiq edən sənədin növü və nömrəsi haqqında məlumatlar Azərbaycan vətəndaşları üçün Azərbaycan Respublikası şəxsiyyət vəsiqəsi, Azərbaycan Respublikası sürücülük vəsiqəsi və ya pasport, Azərbaycan vətəndaşı olmayanlar üçün pasport və ya yaşayış yeri sənədi vasitəsilə təsdiqlənəcək.

**Ünvan barədə məlumatların təsdiqi:** Daimi işgüzar münasibətlərin qurulmasında fiziki şəxslərin müəyyən edilməsi çərçivəsində bəyan edilmiş ünvanın düzgünlüyünün təsdiqi məcburidir. Bu çərçivədə ünvanın təsdiqi həm “Elektron Hökumət” məlumat bazalarından istifadə etməklə (həmçinin onun elektron şəklini çəkməklə), həm də müştərinin ünvanına qəbzli poçt vasitəsilə bildiriş göndərildikdə müştəriyə bildirişin edildiyini bildirən sənəd ünvan təsdiqindən istifadə oluna bilər.

Bundan əlavə ünvanı aşağıdakı sənədlərdən hər hansı biri ilə təsdiqləmək də mümkündür:

- yaşayış yerindən arayış;
- müştərinin adından verilmiş elektrik, su, təbii qaz, telefon kimi abunə xidmətinə aid və son üç ay ərzində verilmiş hesab-fakturalar (o cümlədən müvafiq quruma aidiyyəti borclu tərəfindən təsdiq oluna bilən elektron qaimə-fakturalar);
- hər hansı dövlət orqanı tərəfindən verilmiş sənəd;
- faktura sahibi ilə arasında olan əlaqəni göstərən etibarlı sənəd (məsələn, nikah şəhadətnaməsi) təqdim etməklə üçüncü şəxs adından son üç ay ərzində elektrik, su, təbii qaz, telefon kimi abunə tələb edən hesab-faktura;
- valideynləri ilə birlikdə yaşayan yetkinlik yaşına çatmayanlar üçün ana və ya atanın adına verilən son üç ayın elektrik, su, təbii qaz, telefon kimi abunə haqlarını göstərən hesab-faktura;
- yataqxanalarda qalan yetkinlik yaşına çatmış uşaqlar üçün qaldıqları məktəb və ya yataqxanadan alınacaq ünvanın göstərildiyi yazı;
- qəbz bildirişi ilə poçt vasitəsilə müştərinin ünvanına bildiriş edildiyi halda, bildirişin müştəriyə edildiyini bildirən sənəd;
- cavabdeh şəxslərin öz müştərilərinə etdikləri göndərişlərin bəyan edilmiş ünvanda və müştərinin özü tərəfindən qəbul edildiyini bildirən sənəd.

Bütün şəxsiyyətin müəyyən edilməsi proseslərində;
Səlahiyyətli orqanlar tərəfindən tələb edildikdə təqdim ediləcək təsdiq üçün əsas;
- şəxsiyyəti təsdiq edən sənədlərin əsli və ya notarial qaydada təsdiq edilmiş surətlərinin,

- digər sənədlərin oxunaqlı surəti və ya elektron şəklinin təqdim edildikdən sonra oxunaqlı surəti və ya elektron şəkli çəkiləcək və ya şəxsiyyətlə bağlı fərqləndirici məlumatlar qeyd ediləcəkdir.

## Hüquqi şəxslərin dövlət qeydiyyatı reyestrində qeydiyyata alınmış hüquqi şəxslərin müəyyən edilməsi üçün cavabdehlik

**Şəxsiyyətin müəyyən edilməsi məqsədləri üçün əldə ediləcək məlumatlar:** Hüquqi şəxsin vəzifəsi, dövlət qeydiyyat reyestrinin nömrəsi, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi, fəaliyyət sahəsi, tam ünvanı, telefon nömrəsi və əgər varsa, faks nömrəsi və elektron poçt ünvanı, hüquqi şəxsi təmsil edən şəxsin adı, soyadı, doğum yeri və tarixi,  ana və ata adın, milliyyətin və Azərbaycan vətəndaşları üçün Azərbaycan Respublikası şəxsiyyət vəsiqəsinin nömrəsi, şəxsiyyəti təsdiq edən sənədin növü və nömrəsi və imza nümunəsi götürüləcək.

Hüquqi şəxslərin dövlət qeydiyyatı reyestrində qeydiyyata alınmış hüquqi şəxslərlə daimi işgüzar münasibətlərin qurulması zamanı hüquqi şəxsin səhmlərinin iyirmi beş faizindən artığına malik olan fiziki və hüquqi şəxsin iştirakçıların şəxsiyyəti nizamnamələrinə uyğun olaraq müəyyən edilməlidir.

**Şəxsiyyətinin müəyyən edilməsi məqsədilə alınan məlumatların təsdiqi:** Hüquqi şəxsin adının, dövlət qeydiyyat reyestrinin nömrəsinin, fəaliyyət sahəsinin və ünvanının təsdiqi, dövlət qeydiyyat reyestrində qeydiyyata alınması ilə bağlı sənədlər üzrə vergi identifikasiya nömrəsinin təsdiqi vergi orqanları tərəfindən verilən sənədlər əsasında həyata keçiriləcəkdir.

Hüquqi şəxslərin dövlət qeydiyyatı reyestrində qeydiyyata alınmış hüquqi şəxslərlə daimi işgüzar münasibətlərin yaradılması zamanı həqiqi benefisiarın müəyyən edilməsi üçün hüquqi şəxsin iyirmi beş faizindən artıq payına malik olan fiziki şəxs olan iştirakçılarının şəxsiyyəti fiziki şəxslərin şəxsiyyətinin müəyyən edilməsi üsulu ilə müəyyən edilməlidir.

Hüquqi şəxsi təmsil etmək səlahiyyəti olan şəxslərin şəxsiyyətini təsdiq edən məlumatların düzgünlüyü fiziki şəxslər üçün axtarılan şəxsiyyəti təsdiq edən sənədlərlə, nümayəndəlik səlahiyyəti isə qeydiyyata dair sənədlərlə təsdiq ediləcək.

Daimi işgüzar münasibətlər qurulan zaman, müvafiq dövlət qeydiyyatı idarəsinə müraciət etməklə müştərilər tərəfindən təqdim olunan qeydiyyat sənədlərində olan məlumatların aktuallığını və düzgünlüyünü təsdiq etmək tələb olunur.

Xaricdə qeydiyyatda olan hüquqi şəxslərin müəyyən edilməsi; Azərbaycan Respublikasının konsulluqları və digər səlahiyyətli orqanları tərəfindən təsdiq edilmiş xarici rəsmi sənədlərin və ya müvafiq ölkədə Azərbaycanda qeydiyyatda olan hüquqi şəxslər üçün tələb olunan sənədlərə uyğun gələn sənədlərin təsdiq edilməsi məcburiyyətinin aradan qaldırılması müqaviləsi çərçivəsində bu müqaviləyə tərəf olan ölkənin səlahiyyətli orqanı tərəfindən təsdiq edilməsi barədə qeydlər edilmiş nüsxələri vasitəsilə həyata keçirilir. Bundan əlavə, risk əsaslı yanaşma çərçivəsində şəxsiyyət haqqında məlumatlar lazım gəldikdə bu sənədlərin notarial qaydada təsdiq edilmiş Azərbaycanca tərcümələri ilə təsdiqlənir.

**Sonrakı əməliyyatlarda şəxsiyyətin müəyyən edilməsi üzrə cavabdehlik**

- Əvvəllər lazımi qaydada daimi iş əlaqələri çərçivəsində üzbəüz həyata keçirilən sonrakı əməliyyatlarda, şəxsiyyət haqqında məlumatlar alınır və bu məlumat cavabdeh şəxsdə olan məlumatlarla müqayisə edilir.
- Müqayisə aparıldıqdan sonra müvafiq sənədin üzərinə əməliyyatı həyata keçirmiş fiziki şəxsin adı və soyadı yazılır və imza nümunəsi götürülür. Alınmış məlumatların düzgünlüyünə şübhə yarandıqda, bu məlumatlar təsdiq üçün əsas olan şəxsiyyəti təsdiq edən sənədlər və ya onların notariat qaydasında təsdiq edilmiş surətləri təqdim edildikdən sonra bu sənədlərdə olan məlumatlarla cavabdeh şəxsdə olan məlumatlar müqayisə edilməklə yoxlanılır.

Davamlı işgüzar əlaqə çərçivəsində üzbəüz həyata keçirilən əməliyyatlarda müştərinin şəxsiyyət məlumatlarını əldə etməklə şəxsiyyətin müəyyən edilməsi çərçivəsində mövcud məlumatlarla müqayisə ediləcək və müvafiq sənəddə ad, soyad və imza nümunəsi götürülərək təsdiq ediləcəkdir.

**Başqasının adından həyata keçirilən əməliyyatlarda şəxsiyyətin müəyyən edilməsi üçün cavabdehlik**

❖ Hüquqi şəxslər və ya qeyri-hüquqi şəxslər adından əməliyyatların aparılması onları təmsil etmək səlahiyyətinə malik olan şəxslərin səlahiyyət verdiyi şəxslər tərəfindən tələb olunduqda:

- Hüquqi şəxslərin və ya hüquqi şəxs olmayan şəxslərin şəxsiyyətinin müəyyən edilməsi həyata keçirilir.
- Hüquqi şəxs və ya qeyri-hüquqi şəxs olan təşkilatı təmsil etmək səlahiyyəti olan şəxslərin və onların səlahiyyət verdiyi şəxsin şəxsiyyətinin müəyyən edilməsi fiziki şəxslərin şəxsiyyətinin müəyyən edilməsi qaydasında aparılır.
- Əgər təmsil etmək səlahiyyəti olan şəxsin şəxsiyyətinin müəyyən edilməsi fiziki şəxslərin şəxsiyyətini şəxsiyyəti təsdiq edən sənədlər vasitəsilə müəyyən etmək mümkün olmadıqda, bu, şəxsiyyəti təsdiq edən sənədlərdə məlumatların olması və notariat qaydasında təsdiqlənməsi şərti ilə etibarnamə və ya imza ilə müəyyən edilə bilər.
- Təmsil etmək səlahiyyəti olan şəxslərin səlahiyyət statusu notarial qaydada təsdiq edilmiş etibarnamə vasitəsilə verilir.
- Təmsil etmək səlahiyyəti olan şəxslərin yazılı təlimatda olan imzaları onlara aid notarial qaydada təsdiq edilmiş imzalarla təsdiq edilir.

❖ Əməliyyatlar fiziki şəxs olan müştərinin adından başqa şəxs tərəfindən aparıldıqda:

- Müştərinin adından hərəkət edən şəxsin şəxsiyyətinin müəyyən edilməsi fiziki şəxslərin şəxsiyyətinin müəyyən edilməsi proseduruna uyğun aparılır.
- Bundan əlavə, müştərinin adından çıxış edən şəxsin səlahiyyət statusu notarial qaydada təsdiq edilmiş etibarnamə ilə təsdiqlənir.
- Adından fəaliyyət göstərən müştərinin şəxsiyyətinin müəyyən edilməsi fiziki şəxslərin şəxsiyyətinin müəyyən edilməsi proseduruna uyğun aparıla bilmədiyi hallarda notarial qaydada təsdiq edilmiş etibarnamə ilə aparılır.
- Adından hərəkət edən müştərinin əvvəllər həyata keçirilmiş əməliyyatları səbəbi ilə şəxsiyyətinin artıq müəyyən edilmiş olması halında tələb edilən əməliyyat müştərinin yazılı təlimatda olan imzasının cavabdeh şəxsdə olan imza ilə təsdiq olunması şərti ilə, adından hərəkət etdiyi müştərinin yazılı göstərişi ilə aparıla bilər.

## Benefisiarın tanınması

Əməliyyatın real benefisiarının müəyyən edilməsi üçün zəruri tədbirlər görülməlidir.
Bu çərçivədə;

- ❖ Hüquqi şəxslərin dövlət qeydiyyat reyestrində qeydiyyata alınmış hüquqi şəxslərlə daimi işgüzar münasibətlərin yaradılması zamanı real benefisiarın müəyyən edilməsi üçün hüquqi şəxsin iyirmi beş faizindən artıq payına malik olan fiziki şəxs olan iştirakçılarının şəxsiyyəti fiziki şəxslərin şəxsiyyətinin müəyyən edilməsi üsulu ilə müəyyən edilməsi,
- ❖ Hüquqi şəxsin iyirmi beş faizindən çoxuna sahib olan fiziki şəxs ortağının real benefisiar olmadığı və ya belə səhmlərə malik olan real şəxs ortağı olmadığı şübhəsi yarandıqda hüquqi şəxsin şəxsiyyəti yekun olaraq nəzarətində olan fiziki şəxs və ya şəxslərin aşkar edilməsi üçün zəruri tədbirlərin görülməsi,
- ❖ Müəyyən edilmiş fiziki şəxs və ya şəxslərin real benefisiar kimi qəbul edilməsi,
- ❖ Real benefisiarın müəyyən edilməsi mümkün olmadığı hallarda, real benefisiar kimi dövlət qeydiyyat reyestrində qeydiyyata alınmış ən üst səviyyə icra səlahiyyətinə malik olan fiziki şəxs və ya şəxslərin üst səviyyə rəhbər olaraq real benefisiar kimi qəbul edilməsi,
- ❖ Davamlı işgüzar münasibətlər çərçivəsində digər hüquqi və fiziki şəxslərə son nəticədə nəzarət edən fiziki şəxs və ya şəxslərin aşkarlanması üçün zəruri tədbirlərin görülməsi,
- ❖ Müəyyən edilmiş real benefisiarın şəxsiyyət məlumatlarının əldə edilməsi və bu məlumatların təsdiqi üçün zəruri tədbirlərin həyata keçirilməsi,
- ❖ Bu çərçivədə şəxsiyyətə dair məlumatların daxil olduğu notarial qaydada təsdiq edilmiş imzanın istifadə edilməsi,
- ❖ Hüquqi şəxslərin dövlət qeydiyyat reyestrində qeydiyyata alınmış hüquqi şəxslərlə davamlı işgüzar münasibətlərin yaradılması zamanı, bundan əlavə, hüquqi şəxsin səhmlərinin iyirmi beş faizindən çox olan ortaq hüquqi şəxslərin şəxsiyyəti dövlət qeydiyyat reyestrində qeydiyyata alınmış hüquqi şəxslərin şəxsiyyətinin müəyyən edilməsi proseduru ilə müəyyən edilməsi tələb olunur.

## Əməliyyatdan imtina, aktivlərin dondurulması və işgüzar münasibətlərə xitam verilməsi

"Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun 11.2-ci maddəsində nəzərdə tutulan hallar olduqda, aşağıdakı əməliyyatlar maliyyə institutları tərəfindən, həmin Qanunun 11.6-cı maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, 2 iş günü ərzində icra edilmir və məlumat və sənədlər, əməliyyatlar icra olunmadan, dərhal maliyyə monitorinqi orqanına təqdim edilir:

- yüksək riskli müştəri profilləri ilə əlaqədar əməliyyatlar;
- minimum həddi maliyyə monitorinqi orqanı tərəfindən müəyyənləşdirilən məbləğə bərabər və ya bu məbləğdən yuxarı məbləğdə həyata keçirilən əməliyyatlar;
- maliyyə vəsaitlərinin hesabdan çıxarılması ilə nəticələnən əməliyyatlar.

Əməliyyatlarda cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi və ya digər cinayətlərə dair əsaslar və ya şübhələr mövcud olduqda "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun 11.5-ci maddəsində nəzərdə tutulmuş hallarda maliyyə monitorinqi orqanı əməliyyatın icrasının dayandırılması barədə ən qısa müddətdə, lakin 2 iş günündən gec olmayaraq əsaslandırılmış qərar qəbul edir və dərhal həmin əməliyyatı icra edən maliyyə institutuna əməliyyatın dayandırılması barədə göstəriş verir.

Maliyyə monitorinqi orqanı "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının

Qanununun 15.1-ci maddəsində nəzərdə tutulmuş hallarda, habelə özünün apardığı strateji və taktiki təhlilin nəticəsi olaraq və ya üçüncü dövlətin sorğusu əsasında əməliyyatların 3 iş günündən çox olmayan müddətdə dayandırılması barədə qərar qəbul edə bilər.

Əməliyyatın icrasının dayandırılması barədə maliyyə monitorinqi orqanı tərəfindən qəbul edilmiş qərar və müvafiq məlumat və sənədlər dərhal istintaq aidiyyəti üzrə cinayət təqibini həyata keçirən orqanlara göndərilir. Həmin orqanlar "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun 15.2-ci maddəsində nəzərdə tutulan müddət ərzində əməliyyatın icrasının daha uzun müddətə dayandırılması üçün cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görə bilərlər.

"Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun 15.2-ci maddəsinə uyğun olaraq maliyyə institutu tərəfindən əməliyyatın icrasının dayandırılmasına dair müştəriyə məlumat verilməməlidir.

## ŞÜBHƏLİ ƏMƏLİYYATLAR HAQQINDA MƏLUMAT VERMƏK MƏSULİYYƏTİ

Auditorlar tərəfindən şübhəli əməliyyat müəyyən edildikdə, öz səlahiyyət və imkanları çərçivəsində əməliyyat barədə araşdırma apardıqdan sonra, əldə edilmiş məlumat və tapıntılar çərçivəsində Maliyyə Monitorinqi Xidmətinə məlumatların təqdim olunması Formasını doldurmaqla Maliyyə Monitorinqi Xidmətinə təqdim edilməlidir.

- ⇨ Şübhəli əməliyyatlar, hər hansı maliyyə vəsaiti limitindən asılı olmayaraq Maliyyə Monitorinqi Xidmətinə bildirilir.
- ⇨ Şübhəli əməliyyat anlayışında əməliyyat ifadəsi tək bir əməliyyatla məhdudlaşmayıb, bir çox əməliyyatları əhatə edə bilər.
- ⇨ Birdən artıq əməliyyatlar birlikdə qiymətləndirildikdə, şübhəli əməliyyatlar üçün vahid Maliyyə Monitorinqi Xidmətinə məlumatların təqdim olunması Forması tərtib olunur.

**Şübhəli əməliyyat -** auditorlar və ya onların vasitəçiliyi ilə həyata keçirilən və ya həyata keçirilməyə təşəbbüs edilən əməliyyatın predmeti olan vasitəsilə aparılan və ya həyata keçirilməyə cəhd edilən əməliyyatın predmeti olan əmlak qeyri-qanuni yolla əldə edildiyində və ya qanunsuz məqsədlər üçün istifadə edildiyində, bu çərçivədə terror aktları və ya terror təşkilatları, terrorçular və ya terroru maliyyələşdirənlər tərəfindən istifadə edildiyinə ya da bunlarla bağlı və yaxud əlaqəli olduğuna dair hər hansı məlumat, şübhə və ya yaradacaq bir cəhətin olması halıdır.

Şübhəli əməliyyatda tapıla bilməsi üçün "məlumat", "şübhə" və ya "şübhəyə əsas yaradan məsələ" olması kifayətdir.

**Şübhəli əməliyyat barədə bildirişləri kim təqdim edəcək?**

İşəgötürənlə əlaqəli olmadan işləyən auditorlar şübhəli əməliyyat bildirişi öhdəliyini şəxsən özləri yerinə yetirirlər.

İşəgötürənlə əlaqəsi olmayan auditorlar şübhəli ola biləcək əməliyyatlar haqqında öz səlahiyyətləri və imkanları daxilində araşdırma aparmaqla əldə etdiyi məlumatı və tapıntıları qiymətləndirmək və şübhəli olduğuna dair qərara gəldiyi əməliyyatları barədə Maliyyə Monitorinqi Xidmətini xəbərdar etmək üçün məsuliyyət daşıyırlar.

## Şübhəli əməliyyatlar barədə nə vaxt məlumat veriləcək?

Şübhəli əməliyyatlar şübhə yarandığı tarixdən etibarən dərhal Maliyyə Monitorinqi Xidmətinə məlumat verilməlidir.

> Şübhəli əməliyyatlar şübhə yarandığı halda dərhal Maliyyə Monitorinqi Xidmətinə göndərilməlidir.

## Şübhəli əməliyyat bildirişləri necə göndəriləcək?

Monitorinq subyektləri tərəfindən məlumatlar aşağıdakı vasitələrdən biri ilə təqdim olunur:

1. monitorinq subyektinin məsul şəxsi tərəfindən imzalanmış və möhürlə təsdiq edilmiş kağız daşıyıcıda;

1.1. elektron imza ilə təsdiq edilmiş elektron formatda.

2. Kağız daşıyıcıda forma aşağıdakı qaydada tərtib olunur:

2.1. formanın elektron versiyası doldurularaq printerdə çap etməklə, və ya

2.2. formanın diyircəkli qələmdən istifadə edilməklə əllə doldurulması yolu ilə.

3. Məlumatlar kağız daşıyıcıda aşağıdakı qaydada təqdim olunur:

3.1. məlumat bütövlüyü pozulmadan açılması mümkün olmayan və işıq keçirməyən kağızdan hazırlanmış zərfə qoyularaq möhürlənir;

3.2. zərfin üz tərəfinin yuxarı sol küncündə monitorinq subyektinin adı, ünvanı və məlumatın müvafiq forma üzrə nömrəsi qeyd olunur - zərfə iki və ya daha artıq sayda məlumat qoyulduqda, hər bir məlumatın nömrəsi ardıcıl şəkildə qeyd olunur;

3.3. zərfin üz tərəfinin aşağı sağ küncündə Maliyyə Monitorinqi Xidmətinin adı və ünvanı qeyd olunur;

3.4. zərfin üz tərəfinin yuxan sağ küncündə "MƏLUMAT" qeydi aparılır;

3.5. zərf rəsmi təqdimetmə qaydasında və ya sifarişli poçt rabitəsi vasitəsilə bildirişli məktubla Maliyyə Monitorinqi Xidmətinə göndərilir;

3.6. kağız daşıyıcıda bir neçə formanın göndərildiyi təqdirdə müşayiət məktubunda qoşmaların sayı göstərilməlidir.

4. Məlumatlar elektron formatda aşağıdakı qaydada təqdim olunur:

4.1. Məlumatları elektron formatda təqdim edən monitorinq subyektlərinin məsul şəxsləri Maliyyə Monitorinqi Xidməti tərəfindən Elektron imza üzrə sertifikasiya mərkəzinin Sertifikat qeydiyyat xidmətində qeydiyyatdan keçirilərək, elektron imza, habelə "İstifadəçi adı" və "Şifrə" ilə təmin olunurlar.

4.2. Qeydiyyatdan keçmiş monitorinq subyektlərinin məsul şəxsləri Maliyyə Monitorinqi Xidmətinin rəsmi internet səhifəsində onlara verilmiş "İstifadəçi adı" və "Şifrə"ni daxil etməklə elektron formatda olan məlumatları yükləmək və ya Maliyyə Monitorinqi Xidmətinin rəsmi internet səhifəsində yerləşdirilmiş "Məlumatların təqdim olunması forması"nı onlayn rejimində doldurmaq yolu ilə Maliyyə Monitorinqi Xidmətinə təqdim edirlər.

## Hansı növ əməliyyatlar şübhəli ola bilər?

Şübhəli əməliyyat bildirişinə məruz qalan əməliyyatlar və müştərilərlə bağlı mətbuata və ya oxşar mənbələrə əsaslanaraq “məlumatın” olması halının birbaşa şübhəli əməliyyat bildirişində olması tələb olunan bir vəziyyət olduğu aşkardır. Əsas sual budur; şübhəli və ya şübhə doğuracaq bir məsələnin olduğunu necə müəyyən etmək olar?

Şübhəli əməliyyatlar, ilk növbədə normal məntiqə malik şəxsin belə şübhələnəcəyi davranışa əsaslanaraq, auditorun və/və ya işçilərin bu mövzuda məlumat, təcrübə, peşəkar

məsuliyyət kimi müxtəlif məlumatlar ilə dəstəkləyərək, mümkün maliyyə cinayətləri ilə mübarizə çərçivəsində yaratdığı bir məhsuldur.

Bu çərçivədə, şübhəli əməliyyatların aşkar edilməsində məsuliyyət daşıyan şəxslərə istiqamət vermək üçün Maliyyə Monitorinqi Xidmətinin rəsmi internet saytında **(www.fiu.az)** şübhəli əməliyyatların növləri müəyyən edilmiş olub şübhəli əməliyyat barədə yalnız tiplər ilə özlərinə məhdudiyyət qoymamaları, şübhə doğuran tiplərdən heç birinə uyğun gəlməsə belə, onlardan şübhəli əməliyyatlar barədə məlumat verməsi tələb olunur.

Məsələn; "Müştərilərin auditorlara müraciətlərində; təqdim ediləcək və ya fayllaşdırılacaq sənədlərdə kifayət qədər məlumat olmaması və ya təqdim etdikləri məlumatların ziddiyyətli olmaları və ya məlumat vermək üçün istəksiz davranması". İşi və peşəsi hər cür başa düşülən, lakin hirs, əsəbilik və ya tələskənlik kimi hər hansı səbəbdən bu şəkildə davranan müştəri üçün bu davranış şübhəli əməliyyat hesabatına səbəb olmaya bilər. Digər tərəfdən, müştərinin yeni işgüzar münasibətə girməsi, bu cür davranması, qaçaq və yanlış cavablar verməsi və ya buna fiziki davranışları ilə dəstək verməsi və s. kimi məlumatlar birlikdə götürüldükdə, şübhəli əməliyyat hesabatı tələb edəcək bir məsələnin olduğundan söhbət gedə bilər.

## Şübhəli əməliyyat bildirişində digər nəzərə alınmalı cəhətlər

Bildiriş prosesində əməliyyatın xarakteri və ya müştəri profili ilə bağlı əlavə araşdırma aparılması lazım gələ bilər. Səlahiyyət və imkanlar çərçivəsində aparılacaq bu araşdırmanın məqsədi şübhəni dəstəkləyəcək əlavə tapıntıların olub-olmadığını müəyyən etməkdir. Araşdırma aparılarkən müştərinin, özü haqqında bildiriş veriləcəyindən şübhələnməsinə səbəb ola biləcək rəftar və davranışlardan çəkinmək lazımdır.

Şübhəli əməliyyatlar barədə bildirişin verilməsi tələb olunan hallarda, auditorlar tərəfindən şəxsiyyətin müəyyən edilməsi üçün zəruri prosedurları həyata keçirilir. Bildirişin mövzusu olan şübhəli əməliyyata cəhd mərhələsində qaldığı və həyata keçirilmədiyi hallarda şəxsiyyətin müəyyən edilməsi öhdəliyi mümkün qədər yerinə yetirilir.

> Müştəri haqqında araşdırma apararkən bu vəziyyətdən şübhələnməsinə səbəb olacaq rəftar və davranışlardan çəkinin.

Şübhəli əməliyyat barədə Maliyyə Monitorinqi Xidmətinə bildiriş verildiyi, cavabdehlik vəzifəsi olan audit əməkdaşları ilə ittiham irəli sürülən zaman istisna olmaqla, əməliyyatın tərəfləri də daxil olmaqla heç kimə açıqlana bilməz.

Əməl etməyənlər vəzifəli şəxslər üç min manatdan beş min manatadək məbləğdə, hüquqi şəxslər otuz min manatdan əlli min manatadək məbləğdə cərimə edilir.

> Şübhəli əməliyyat barədə Maliyyə Monitorinqi Xidmətinə bildiriş verildiyi, cavabdehlik vəzifəsi olan audit əməkdaşları ilə ittiham irəli sürülən zaman istisna olmaqla, əməliyyatın tərəfləri də daxil olmaqla heç kimə açıqlanmamalıdır.

Hər hansı işəgötürəndən asılı olmadan auditor fəaliyyəti göstərən şəxslər üçün hazırlanmış bu sənəddə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində qanunvericiliyin əsas məsələləri daxildir.

## Şübhəli əməliyyat növlərinə nümunə

| Sıra № si | TƏSVİRİ |
|---|---|
| | **Müştəri profilinin növləri** |
| 1. | Müştərilərin cavabdeh şəxslərə müraciətlərində; təqdim edilməsi və ya verilməsi tələb olunan sənədlərdə kifayət qədər məlumatların olmaması, verdikləri məlumatların bir-biri ilə ziddiyyət təşkil etməsi və ya məlumat vermək üçün istəksiz davranılması |
| 2. | Əməliyyat üçün pul və ya digər hədiyyələr təklif edilməsi; və ya müştəri barəsində çirkli pulların yuyulması və ya terrorizmin maliyyələşdirilməsi ilə bağlı mətbuatda neqativ xəbərlərin yer alması kimi şübhəyə əsaslar yaradan konkret vəziyyətin olması |
| 3. | Məsələn, müştərinin ümumi müştəri davranış modellərindən kənara çıxması haqqında şübhəli əməliyyat bildirişlərinin verilməsinin qarşısını almaq məqsədilə bəzən çox yaxın, bəzən də təhdidedici münasibət göstərməkləri |
| 4. | Müştərilərin işi/peşəsi, maliyyə vəziyyəti ilə əməliyyatları arasında məntiqli bir nisbətin olmaması |
| 5. | Müştərilərin riskli şəxslər və ya təşkilatlar və kommersiya və ya digər münasibətlərinin olması |
| 6. | Şirkətlərin fəaliyyət göstərdikləri sektorda olan digər təşkilatlara və ya ümumi olaraq şirkət strukturlarına nəzərən proporsional olmayan sərmayə, tərəfdaşlıq, idarəetmə və məşğulluq strukturuna malik olması |
| | **Keçirilən əməliyyatlarla əlaqədar tiplər** |
| 1. | Kommersiya fəaliyyəti göstərən şəxslərin və ya təşkilatların fəaliyyəti çərçivəsində adətən təkrarlanması lazım olan əməliyyatların fərdi əməliyyatlar kimi qalması və ya əksinə, adi iş həyatında tez-tez aparılmayan əməliyyatların davamlı olaraq təkrarlanması |
| 2. | Adi tətbiqlərdə toplu şəkildə aparılması lazım olan maliyyə əməliyyatları, tapıntı və bildirişlərin qarşısını almaq üçün ağlabatan əsaslandırma olmadan bölünməsi |
| 3. | Aparılan və ya aparılmaq istənən əməliyyatın adi və ağlabatan hüquqi və ya iqtisadi əsaslandırmasının və ya məntiqinin olmaması |
| 4. | Müştərinin kiçik nominallarla böyük məbləğdə nağd pul ödənişi etməsi və ya ödəniş alətlərinin qeyri-adi istifadəsi, məsələn, tez-tez istifadə olunmayan valyuta və ödəniş etmək istəyi |

| Əməliyyatlarla bağlı ümumi tiplər | |
|---|---|
| 1. | Müştəri əməliyyat aparmazdan əvvəl şəxsiyyətin müəyyən edilməsi və şübhəli əməliyyat barədə bildiriş öhdəliyi, əməliyyat limitləri, cavabdeh şəxsin çirkli pullarının yuyulması ilə mübarizədə nəzarət üsulları haqqında məlumatlar əldə etməyə çalışması və bu mövzuda suallar verilməsi |
| 2. | Müştəridən fəaliyyəti, məşğuliyyəti və ya şəxsiyyəti, ünvanı və telefonu kimi şəxsi məlumatların əldə edilməsində çətinliklərlə qarşılanması |
| 3. | Müştərinin əməliyyatın məqsədi və ya əməliyyat predmeti olan fondun mənbəyi haqqında izahat verməkdə çətinlik çəkməsi və ya məlumat verməkdən yayınması |
| 4. | Müştərinin qanuni və ya inzibati qaydada təqdim etməli və ya doldurmalı olduğu sənədi təqdim etməmək və ya doldurmamaq üçün məsul əməliyyat əməkdaşını inandırmağa çalışması |
| 5. | Üzdə bir-birindən ayrı hərəkət edən müştərilərin eyni ünvan, telefon və oxşar əlaqə məlumatları verməsi |
| 6. | Aralarında heç bir qohumluq və ya iş münasibəti olmayan və birgə müddətli depozit hesabı açmış şəxslərin hesablarında əmanət depoziti profilinə uyğun gəlməyən nəzərəçarpacaq dərəcədə və intensiv şəkildə nağd əməliyyat və ya elektron şəkildə yerli və xarici köçürmə əməliyyatlarının görünməsi |
| 7. | Hüquqi şəxs müştərilərin tərəfdaşları və ya menecerləri kimi görünən fiziki və ya hüquqi şəxslərin, firmanın əsl tərəfdaşı və ya meneceri olmadığının anlaşılması; firmanın sərmayəsinin və rəhbərliyinin pis reputasiyaya malik olan və ya rəsmi orqanlar tərəfindən barələrində istintaq açılmış və ya təhqiqat aparıldığı bilinən üçüncü şəxslərin nəzarətində olduğuna dair məlumat ya da şübhə doğuran bir vəziyyətin olması |
| 8. | Hüquqi şəxs müştərilərin, yeni nəzarət edən tərəfdaşının və/və ya tərəfdaşlarının; şəxsi və ticarət keçmişləri haqqında məlumat verməkdən çəkinmələri, daha əvvəl şirkətin fəaliyyət göstərdiyi sahədə heç bir marağı, təhsili və iş təcrübəsinin olmadığına dair əlamətlər olması |
| 9. | Müştərinin şəxsiyyətini təsdiq edən sənədi təqdim etmədən və ya keçərli vəsiqə sənədi olmadan saxta və uydurma olduğuna şübhə yaranan adla əməliyyat aparmağa və başqalarının adından əməliyyat aparmağa təşəbbür göstərməsi |
| 10. | Müştəri tərəfindən şübhəli əməliyyatlar barədə məlumat verilməməsi barədə işçilərinə təkliflər, təzyiqlər və ya təhdidlər etməsi |
| **Riskli əsaslarla aparılan əməliyyatlarla əlaqədar tiplər** | |
| 1. | Mükafat ödənişləri ilə müştəriyə edilən ödənişlərin riskli ölkələrə və/və yaxud bu ölkələrdən baş verən və ya bu əməliyyatlarda riskli ölkələrdə olan banklar tərəfindən buraxılan kredit kartlarından istifadə |

| Qeyri-kommersiya təşkilatları ilə əlaqədar tiplər | |
|---|---|
| 1. | Qeyri-kommersiya quruluşlarının bəyan edilmiş məqsədi, fəaliyyətləri və görünən resursları ilə cavabdeh qarşısında aparılan əməliyyatların xarakterinin, böyüklüyünün uyğunsuz olması |
| 2. | Təşkilatın cavabdeh şəxs qarşısında apardığı əməliyyatların tezliyi və miqdarının qəfil artması |